# 2023 TOPÇUBAŞOV MƏHKƏMƏ MÜSABİQƏSİ

# MÜSABİQƏ İŞİ

BAKI DÖVLƏT UNİVERSİTETİ HÜQUQ FAKÜLTƏSİ **TƏLƏBƏ ELMİ CƏMİYYƏTİ** TƏRƏFİNDƏN TƏŞKİL OLUNUR.

Vebsayt: mcs.bsulawss.org/court/
E-poçt: moot@bsulawss.org

§ 1 Ərizəçi "Süngün" MMC (bundan sonra "Şirkət") Topçubaşov rayonu ərazisindəki "Tikantəpə" qızıl mədənində fəaliyyət göstərən şirkətdir. Şirkətin əsas fəaliyyəti mədən-hasilat şirkətləri üçün avadanlıq təchizatı və mühəndislik xidmətlərinin göstərilməsindən ibarətdir. Şirkətin satışlarının təqribi həcmi 2021-ci ildə 225.000 manat, 2022-ci ildə 241.000 manat olmuşdur.

§ 2 Respublika əhəmiyyətli yollardan birinin qərbinə doğru "Tikantəpə" qızıl mədəninə və mədənlə bağlı fəaliyyətlər göstərən müxtəlif istehsalat bazalarına aparan yollar ayrılır. Şirkətin xüsusi mülkiyyəti olan və fəaliyyət göstərdiyi istehsalat bazası yolun 500 metr qərbində yerləşir. Yolun 6 kilometr qərbindən isə "Tikantəpə" qızıl mədəni başlayır. Şirkətin lövhəsi də 2013-cü ildən bəri magistral yoldan bazaya doğru ayrılan yolun üstündə - bazanın girişində yerləşdirilmişdir. Lövhənin olduğu yerin fotoşəkili Qoşma 1-dədir.

§ 3 "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu[1] çərçivəsində açıq məkanda reklamlar üzrə səlahiyyətli dövlət qurumu Açıq Məkanda Reklam Agentliyidir (bundan sonra "Agentlik"). Bu Qanun üzrə 1 avqust 2017-ci ildən qüvvəyə minmiş dəyişikliklər hazırkı mübahisənin özəyini təşkil edir.[2] Həmin dəyişikliklərlə açıq məkanda yerləşdirilən reklam xarakterli lövhə və məlumatların tənzimləmə rejimi yenilənmişdir. Əlavə olaraq, *"Açıq məkanda reklam yerləşdirilməsinə icazə verilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası"* (bundan sonra "Qayda") və *"Açıq məkanda*

[1] "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu (2015). Burada bax: https://e-qanun.az/framework/30348

[2] "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (2017). Burada bax: https://e-qanun.az/framework/36270 Sonradan həmin müddəalara yenidən dəyişikliklər edilmişdir.

*reklam yayımına görə ödənilən haqqın məbləği"* 19 dekabr 2017-ci il tarixli müvafiq Fərmanla təsdiqlənmişdir.[3]

§ 4 Sözügedən dəyişikliklə bağlı 2 iyul 2017-ci ildə hökumətin vebsaytında press-reliz yayımlanmışdır. Press-relizdə o cümlədən deyilib:

> *Müvafiq dəyişikliklər açıq məkanda təhlükəsizliyi və vətəndaşlarımız üçün estetik və xoşagəlimli ətraf mühiti təmin etmək məqsədi daşıyır. Bununla əlaqədar açıq məkanda reklamlar üzrə bəzi qaydalar müəyyənləşdirilir və onların ölçüsü, yerləşdirilməsi, habelə məzmunu tənzimlənir. Xüsusən də, çox hərəkətli yerlərdə görüntü kirliliyinə səbəb olacaq və ictimai təhlükəsizliyə risk yarada biləcək, diqqət yayındıran obyektlərin quraşdırılmasından çəkindirmək hədəflənir.*

§ 5 Agentlik 17 aprel 2020-ci ildə Şirkətə bildiriş göndərmiş və löhvənin açıq məkanda reklam kimi yerləşdirilməsi üçün icazə alınmalı olduğu barədə xəbərdarlıq etmişdir. Şirkət xəbərdarlığa məktubla etiraz etmişdir. Ərizəçi məktubda lövhənin Qanunun məqsədləri üçün "reklam" və ya "açıq məkanda reklam" adlandırılmasını qeyri-müəyyən, icazə ilə bağlı əlavə ödənişlərin tələb olunmasını isə əsassız hesab etdiyini bildirir. Buna baxmayaraq 15 iyun 2020-ci ildə Agentlik Şirkətə növbəti xəbərdarlığı edərək icazə alınmadığı halda inzibati xəta haqqında iş üzrə icraat başladılacağını bildirmişdir.

§ 6 Şirkətin bildirdiyinə görə inzibati xəta icraatının başlamaması üçün Şirkət 19 iyun 2020-ci il tarixində lövhəyə açıq məkanda reklam kimi icazə verilməsi barədə Agentliyə məktubla müraciət edir. Məktubda təkcə lövhənin yerləşdiyi yer göstərilir və icazənin verilməsi xahiş edilir.

[3] "Açıq məkanda reklam fəaliyyəti ilə bağlı bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (2017). Burada bax: https://www.e-qanun.az/framework/37330

Məktubun məzmununa Qaydaya uyğun olaraq müraciətə əlavə olunmalı olan sənəd və məlumatlar əlavə olunmayıb. Tərəflərin bildirdiyinə görə müraciət məktubu Agentliyin sahə üzrə inspektorunun məsləhəti əsasında tərtib olunmuşdur.

§ 7 Müraciət məktubunu aldıqdan sonra Agentlik 1 yanvar 2018-ci ildən 1 yanvar 2021-ci ilə qədərki dövrü əhatə edən dövlət rüsumu və yayım haqqı fakturalarını Şirkətə təqdim edir. Agentlik sözügedən dövrü altı aylıq hissələrə bölməklə, altı dövlət rüsumu və altı yayım haqqı fakturası təqdim etmişdir. Hər bir altı aylıq dövr üçün dövlət rüsumu məbləği 272 manat (32 $m^2$ * 17 AZN illik rüsum/2), yayım haqqının məbləği isə 679.68 manat (32 $m^2$ * 6 AZN aylıq haqq * 6 ay * 0.5 əmsal * 1.18 ƏDV) kimi qeyd olunmuşdur. Bununla da Şirkətdən üç illik dövr üçün cəmi 1632 manat dövlət rüsumu və 4078.08 manat yayım haqqının ödənişi tələb edilmişdir. Lövhənin sahəsini Agentlik əməkdaşları yerində ölçmüşdür və sonrakı prosessual mərhələlərdə bu ölçü mübahisələndirilməmişdir.

§ 8 Dövlət rüsumu ödənişi üçün bildiriş-fakturada vəsaiti alan qismində Dövlət Xəzinədarlığının hesab rekvizitləri qeyd olunmuşdur. Yayım haqqı fakturalarında isə vəsaiti alan qismində Agentliyin yerli bankların birindəki hesabının rekvizitləri qeyd olunmuşdur.

§ 9 Şirkət müraciətdən əvvəlki dövrə dair rüsum və yayım haqqı ödənişlərinin tələb olunmasını hüquqazidd hesab etmiş və Agentliyə etirazını bildirmişdir. 24 iyun 2020-ci il tarixində Şirkət yalnız 01.07.2020-01.01.2021 dövrünə aid dövlət rüsumunu ödəyərək müvafiq ödəniş tapşırığının surətini Agentliyə təqdim etmiş və icazənin verilməsini tələb etmişdir. 19 iyul 2020-ci il tarixində Agentlik icazənin verilməsindən imtina etmiş və təqdim edilən bütün fakturaların ödənilməsini Ərizəçidən tələb etmişdir. İcazə verilmədiyi üçün Şirkət 01.07.2020-01.01.2021 dövrünə aid yayım haqqının ödənişini də

etməmişdir. Şirkət bunu Agentliyə yazılı olaraq bildirmiş və məsələni məhkəmədə mübahisələndirəcəyini əlavə etmişdir.

§ 10 Şirkət lövhəni bu ərəfədən indiki vaxta qədər yerində və açıq olaraq saxlamışdır. 30 iyun 2020-ci ildə Agentlik İnzibati Xətalar Məcəlləsinin 428.7.1-ci maddəsi əsasında tərtib etdiyi protokolu Topçubaşov Rayon Məhkəməsinə baxılmaq üçün göndərmişdir. Məhkəmə işə baxmış və Şirkətin 5000 manat cərimə olunması barədə 7 avqust 2020-ci ildə qərar vermişdir. Qərardan apellyasiya şikayəti verən Şirkətin iddiası təmin olunmamış və həmin qərar qüvvədə saxlanılmışdır. Cərimə məbləği sonradan icra orqanının inkasso sərəncamı əsasında Şirkətin bank hesabından məcburi qaydada tutulmuşdur.

§ 11 17 avqust 2020-ci ildə Şirkət Topçubaşov İnzibati Məhkəməsində Agentliyə qarşı iddia qaldırmışdır. Ərizəçinin dəlillərinin əsasları aşağıdakı kimi olmuşdur:

i. Lövhə reklam hesab edilməməli;
ii. 01.07.2020-01.01.2021 dövrünə aid ödənilmiş dövlət rüsumu və 5000 manat cərimə məbləği Agentlikdən tutulub Ərizəçiyə ödənilməli;
iii. Lövhə reklam hesab olunsa belə, Agentliyin müraciətdən əvvəlki dövr üçün yayım haqqı və dövlət rüsumunu tələb etməsi hüquqazidd sayılmalı və
iv. Məhkəmə qərarının qüvvəyə mindiyi tarixdən etibarən Agentlik icazəni təmin etməli və tələb olunması hüquqauyğun olsa belə, yayım haqqı ilə dövlət rüsumu bu tarixdən sonrakı dövr üçün hesablanmalıdır.

§ 12 Şirkətin mətbuat katibi məsələ ilə bağlı 20 avqust 2020-ci ildə yayımlanmış "Gündəlik Topçu" qəzetinə verdiyi müsahibədə bildirmişdir:

*Agentlik dəyişiklikliyin qüvvəyə minməsindən təxminən üç il müddət keçdikdən sonra birdən-birə bizi "Reklam haqqında" Qanuna tabe tutdu. Biz yenə də xoş niyyət göstərərək icazə əldə etmək üçün Agentliyə müraciət etdik. Amma qanuna zidd olaraq bizdən müraciətdən xeyli əvvələ aid ödənişləri tələb etdilər. Bu hal, təbii ki, qanunçuluq və şəffalığa riayət olunması ilə bağlı suallar yaradır. Biz keçmiş dövr üçün necə icazə ala bilərik ki, həmin dövr üçün də ödənişlər edək? Bundan başqa "Açıq məkanda reklam" Qaydaları və Agentliyin inzibati praktikası ilə də bağlı xeyli şübhə doğuran hüquqi məqamlar var.*

*Əvvəla, müştəri bazamızın yalnız məhdud sənaye müəssisələrindən ibarətdir və lövhəmiz hər hansı fiziki şəxsə şirkətimizi tanıtma məqsədi daşımır. Buna baxmayaraq, bazamızın girişindəki sadə löhvənin niyə "reklam" olması sualına Agentlik tərəfindən hələ də cavab almamışıq.*

*İkincisi, yayım haqqı məbləğinin "Reklam haqqında" Qanunda konkret meyarlar göstərilmədən sadəcə icra orqanının aktı ilə təsdiqlənə bilməsi normativ hüquqi aktdan sui-istifadə imkanı kimi nəzərə alınmalıdır. Yayım haqqının dövlət rüsumundan bir neçə qat çox olması, bu haqqın Agentliyin hesabına köçürülməsi də mübahisə doğuran məsələdir. Əlavə olaraq, bu haqqın qanunla deyil, fərmanla müəyyən olunması, həmçinin qanunvericilikdəki digər lisenziya və icazələrə aid ödənişlərlə müqayisədə qeyri-adiliyi hüquqi vəziyyəti bir az da mürəkkəbləşdirir.*

*Üçüncüsü, reklam fəaliyyətimizin olmamasına baxmayaraq, sadəcə bazamızın önündəki məlumat lövhəsinə görə şirkətimizə reklam şirkəti kimi davranılması "Reklam haqqında" Qanunun Konstitusiyamızdakı bərabərlik hüququna zidd olması deməkdir. Belə ki, bərabərlik hüququ həm də oxşar şərtlərdə olanlara qarşı*

> *oxşar qaydaların tətbiqini ehtiva edir. Həqiqətən də, şirkətimizin reklam lövhələri ilə müştəri və gəlir qazananlarla eyni qaydalara tabe tutulması heç bir məntiqə sığmır.*
>
> *Dördüncüsü, şirkətimizin özünə məxsus sahədə öz lövhəsini yerləşdirməsi Konstitusiyamızın təmin etdiyi mülkiyyət hüququ ilə qorunmalıdır. Mülkiyyət hüququmuza yalnız şirkətimizin maraqları ilə ictimai maraqlar arasında toqquşma olarsa, müdaxilə edilə bilər. Reklam fəaliyyəti ilə məşğul olanlarla müqayisədə bizə ədalətsiz yanaşmaqaun ilə birlikdə, Agentliyin ətrafdakı ictimai estetikanı nə dərəcədə qoruduğu qeyri-müəyyəndir. Əlavə olaraq, yığılan yayım haqqına münasibətdə Agentliyin əsas məqsədinin ictimai maraqları qorumaq yox, pul yığmaq olduğu bəllidir. Belə bir vəziyyətdə mülkiyyət hüququmuza müdaxilənin hüquqazidd olması açıq və aşkardır.*

§ 13 Agentliyin mətbuat katibinin aşağıdakı bəyanatı eyni qəzetin iki gün sonrakı buraxılışında nəşr edilib:

> *Yeni qurum kimi fəaliyyətə başladığımıza görə Agentliyin iş yükünün çoxluğundan sui-istifadə edən bəzi şəxslər öz hüquqazidd əməllərini ört-basdır etməyə çalışırlar. İş yükünə görə şəxslərə sonradan xəbərdarlıq edə bilməyimiz həmin şəxslərin qanun qüvvəyə mindikdən sonrakı pozuntusunu aradan qaldırmamalıdır. Hələ Agentlik yeni qaydalara keçidi nəzərə alıb yalnız 1 yanvar 2018-ci ildən sonrakı dövr üçün icazələrin alınmasını tələb edir.*
>
> *Müştəri bazasının birbaşa fiziki şəxslərdən ibarət olmaması bəzi şirkətləri "Reklam haqqında" Qanunun tələblərindən azad etmir. Hamı başa düşür ki, istənilən halda açıq məkandakı böyük reklamlar yekunda fiziki şəxslər tərəfindən görülür və tanınır.*

> *"Reklam haqqında" Qanunda yayım haqqını tənzimləmək birbaşa müvafiq icra hakimiyyəti orqanının səlahiyyətinə verilib və bu haqqın məbləğinin fərmanla müəyyən oluna bilməsinə heç bir məhdudiyyət qoyulmayıb. Bu vəsait hesabına Agentlik açıq məkanda görüntü kirliliyinin artmasına qarşı mübarizə aparır. Eyni zamanda, yayım haqqı dövlət rüsumuna münasibətdə elə də böyük məbləğ deyil. Hətta əksər bölgələr üçün yayım haqqının hesablanma əmsalı 0.5 olaraq müəyyən edilib ki, iqtisadi dövriyyənin zəif olduğu yerlərdə yekun məbləğ ədalətli olsun.*
>
> *Qanun hər kəs üçün bərabər olmalıdır. Açıq məkanda reklam qaydaları reklam və qeyri-reklam fəaliyyəti göstərən şəxslər üçün ayrı şəkildə tətbiq olunarsa, bu bərabərlik hüququnun pozulmasına səbəb olar. Qanunu açıq məkanda reklam nümayiş etdirən hər kəsə eyni formada tətbiq etməklə bərabərlik hüququna təminat verilir.*
>
> *Açıq məkanda reklam üçün icazə rejimi müəyyən etməklə Qanun şəxsləri ətraf mühitin estetika və təbii quruluşunu pozmaqdan çəkindirir. Bununla bərabər, Qanun hər kəsə sahəsi bir kvadratmetrdən artıq olmayan lövhə və fərqləndirici nişanlardan məhdudiyyətsiz istifadə etmək imkanı yaradır. Beləliklə, ictimai və fərdi maraqlar balanslaşdırılaraq ədalət təmin olunur.*

§ 14 Məhkəmə Ərizəçinin iddiasını qismən – yalnız müraciətdən əvvəlki dövr üçün ödənişlərin tələb edilməsinin hüquqazidd olması hissəsində təmin etmişdir. Apellyasiya instansiya məhkəməsi birinci instansiya məhkəməsinin qərarını olduğu kimi saxlasa da, Agentliyin şikayəti əsasında kassasiya instansiyası qərarın ləğvi və yenidən araşdırılma üçün apellyasiya instansiyasına qaytarılması nəticəsinə gəlmişdir. İşə növbəti dəfə baxan apellyasiya instansiyası iddianın

rədd edilməsi barədə qərar vermiş və kassasiya instansiyası Ərizəçinin şikayətini təmin etməmişdir.

§ 15 Şirkət kassasiya instansiyasının qərarı barədə Konstitusiya Məhkəməsinə şikayət etmişdir.

§ 16 Şirkət və Agentlik öz mövqelərinə uyğun olaraq aşağıdakı suallar üzrə mülahizələrini[4] Konstitusiya Məhkəməsini yazılı şəkildə təqdim etməlidir:

i. Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsi və lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması konstitusional mülkiyyət hüququna ziddirmi?

ii. Reklam qanunvericiliyinin reklam və qeyri-reklam fəaliyyəti göstərən şəxsləri fərqləndirməməsi konstitusional bərabərlik hüququnu pozurmu?

iii. İcazə ilə bağlı dövlət rüsumundan əlavə yayım haqqının tələb edilməsi qaydası dövlət ödənişlərinin qanunla müəyyən edilməsi ilə bağlı konstitusional tələbə uyğundurmu?

iv. Əvvəlki dövrə aid icazə alınmasının və ödənişlərin tələb edilməsi hüquqauyğundurmu?

[4] Şirkətin yazılı təqdimatı "Ərizəçi" kimi, Agentliyin yazılı təqdimatı "Cavabverən" kimi işarələnməlidir.

Qoşma 1:

